***Əsəd QURBANLI*** *

# AZƏRBAYCANLILARIN TARİXİ TORPAQLARINDAN-ERMƏNİSTAN SSR ƏRAZİSİNDƏN DEPORTASİYASI VƏ AZƏRBAYCANLI ƏHALİNİN BU SİYASƏTƏ QARŞI MÜQAVİMƏTİ MƏSƏLƏLƏRİ
## (*Arxiv sənədləri əsasında*) (1947-1953-cü illər)

**Açar sözlər:** Arxiv, deportasiya, azərbaycanlı,erməni, müqavimət
**Keywords:** Archival, deportation, azerbaijanian, armenian, protest
**Ключевые слова:** Архив, депортация,азербайджанец армянин,сопротивления

Son illər 1947-1953-cü illərdə Ermənistan SSR ərazisində soydaşlarımıza qarşı həyata keçirilmiş deportasiya siyasətinin araşdırılması öz aktuallığı və vacibliyi ilə diqqəti cəlb edir. Belə ki, bu siyasət indinin özündə belə davam edir, soydaşlarımız yenə də tarixi torpaqlarında deportasiyaya, etnik təmizləməyə məruz qalmışlar. Bu baxımdan azərbaycanlı əhalinin ikinci dünya müharibəsindən sonrakı illərdə tarixi torpaqlarında deportasiyaya qarşı göstərdiyi müqaviməti öyrənilməsi vacib olan əsl nümunədir.

Azərbaycanlıların tarixən yaşadıqları ərazilərdən deportasiyası siyasəti bütün XX əsr boyu sistemli surətdə davam etdirilmiş, soyqırımı səviyyəsinə çatdırılmasına görə dünya tarixində analoqu olmayan aksiya olmuşdur. Sovetlər Birliyi daxilində azərbaycanlıların deportasiyası yeni metodlarla davam etdirilmiş, ikinci dünya müharibəsindən sonrakı illərdə isə bu siyasət amansızlıqla həyata keçirilmişdir.

Bu illərdə Azərbaycan türklərinə qarşı ermənilər tərəfindən həyata keçirilmiş deportasiya və soyqırımı cinayətləri daha geniş vüsət almış, deportasiya siyasəti daha mütəşəkkil şəkildə və daha böyük qəddarlıqla həyata keçirilmişdir. Soydaşlarımızın üzləşdiyi bu faciəli dövrə, xüsusən də azərbaycanlıların başına gələn bu ağrılı hadisələrə qısada olsa məqalə həsr etməyi lazım bilirik.

Azərbaycan SSR K(b)P Partiyasının 1 katibi M.C.Bağırovun və Ermənistan SSR K(b)P MK-nın I katibi Q.A.Arutyunovun imzaları ilə İ.V.Stalinə ünvanlanmış 1947-ci il 3 dekabr tarixli birgə məktubu köçürməyə səbəb olmuşdu [1,v.13-14]. Köçürmənin rəsmi səbəbi kimi Mingəçevir su sisteminin yenidən qurulması və bunun nəticəsində istifadəyə verilmiş torpaqların işçi qüvvəsi ilə təmin edilməsi əsas göstərilirdi [1, v.13].

* **Əsəd QURBANLI** - AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent.

1947-ci il 23 dekabrda SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalin və İşlər idarəsinin rəisi J. Çaadayevin imzası ilə "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülməsi haqqında" qərar qəbul edilir. 11 maddədən ibarət olan qərarda 1948-1950-ci illərdə "könüllülük prinsipləri əsasında" Ermənistan SSR-dən 100 min kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına, 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin və 1950-ci ildə isə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu [1,v.13].

SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında"kı 1947-ci il 23 dekabr tarixli qərarı ermənilərin aborigen türk əhalisinə qarşı ənənəvi etnik təmizləmə siyasətinə yenidən rəvac verməklə yanaşı onların aqressiv planlarının reallaşmasına yol açmış oldu.

Azərbaycan türklərinin köçürülməsi haqqında Mərkəzi hökumətin qəbul etdiyi qərarların siyasi aspektdə şərhi də onu göstərir ki, bu qərarlar türk əhalisinin respublika ərazisindən istədikləri forma və metodlarla çıxarılması üçün erməni rəsmi və şovinist dairlərinə hər cür sərbəstlik verirdi [9].

Məcburi köçürülmə ilə bağlı arxiv materialları ilə tanışlıq və azərbaycanlıların Ermənistandan deportasiyası prosesinin izlənilməsi də təsdiq edir ki, deportasiya prosesi ermənilərin türk əhalisinə qarşı olan tarixi-etnik düşmənçiliyi zəminində həyata keçirilir, etnik təmizləmə siyasətinin yeni formada davamı idi.

1948-ci ilin 10 martında SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalinin və İşlər İdarəsinin rəisi Çadeyevin imzası ilə "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı ikinci qərarını qəbul edir [4, v.21-25].

1948-ci il 10 mart tarixli qərarında azərbaycanlıların Kür-Araz ovalığına köçürülməsi ilə bağlı konkret tədbirlərdən bəhs olunur və göstərilirdi ki, bu qərar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarına əlavədir [4, v.101]. Qərarda köçürülmə dövrü üçün köçürüləcək bütün işlər Azərbaycan SSR-nin və Ermənistan SSR-nin rəhbərlərinin üzərinə qoyulmuşdu [4, v.22-25].

Ermənistandan köçürülən azərbaycanlı əhaliyə bir sıra "güzəştlər" nəzərdə tutulur, "Kənd təssərüfatında köçürmə işləri üzrə güzəştlər haqqında "SSRİ Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarları Sovetinin 1937-ci il 17 noyabr tarixli qərarı Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə də şamil edilirdi. Maraqlıdır ki, bu qərar məhz 1937-ci ildə Sibir, Qazaxıstan və Uzaq Şərqə köçürülənlərə aid idi [6, s.9].

Köçürüləcək əhalinin yerləşdiriləcəyi ərazi Azərbaycanın Kür-Araz ovalığı müəyyən edildiyindən, onların Ermənistan SSR-dən köçürülüb yerləşdirilməsində





daha ağır yük Azərbaycan SSR hökumətinin üzərinə düşürdü. Azərbaycan K(b)P MK SSRİ NS-nın 10 mart 1948-ci il, 754 saylı qərarından irəli gələn vəzifələri həll etmək məqsədilə 1948-ci ilin 19 martında xüsusi qərar qəbul etdi [4 v.19-21].

Azərbaycan K(b)P MK 19 mart 1948-ci il tarixli qərarı ilə Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürüləcəyi müddətdə köçürülmə ilə bağlı məsələnin yerindəcə tez və və operativ həlli məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin İrəvan şəhərində xüsusi nümayəndəliyini açmış, həmin vəzifəyə Mürsəl Nəcəf oğlu Məmmədov təyin edilmişdi [3,v.19-20].

Azərbaycan SSR Nazirlər Soveti yanında İrəvandakı xüsusi nümayəndəsi M.Məmmədovun Azərbaycan SSR K(b)P MK-nın I-katibi M.Ç.Bağırova və Nazirlər Sovetinin sədri Teymur Quliyevə göndərdiyi sənəd köçürmə ilə bağlı bir çox həqiqətlərin üzə çıxarılmasında xüsusi əhəmiyyət daşıyır.

Sənəddən aydın olur ki, respublikanın 1948-ci il üçün 53 yaşayış məntəqəsindən 11.244 nəfərin köçürülməsi nəzərdə tutulurdu. İlkin köçürmə planından aydın olur ki, ermənilər ilkin olaraq azərbaycanlılarla ermənilərin birgə yaşadıqları qarışıq kəndləri, əsasən də iri azərbaycanlı kəndlərini köçürmək istəyirdilər. Bunlardan biri 245 təsərrüfatı olan (1179 nəfər) Noyeberyan rayonunun Ləmbəli kəndi, o 238 təsərrüfatı olan (1410 nəfər) Zəngibasar rayonunun Mehmandar kəndləri idi [1,v.13].

Belə bir böyük köçürülmə tədbirləri köçürüləcək azərbaycanlı əhali arasında həddən çox suallar doğurmuş, bu məqsədlə Ermənistanın müxtəlif rayon və kəndlərindən azərbaycanlı əhalinin müxtəlif təbəqələrindən olan şəxslər İrəvana-Azərbaycan SSR Nazirlər Sovetinin nümayəndəliyinə üz tutur, bir çox suallara cavab axtarırlar.M.Məmmədovun Azərbaycan rəhbərliyinə ünvanlanmış ilkin köçürmə planından aydın olur ki,ona çoxlu azərbaycanlılar müraciət edərək bildirmişlər ki, onları mümkün qədər tez bir müddətdə Azərbaycana köçürsünlər. Aydın olur ki, nümayəndəliyə müraciət edənlərin əksəriyyəti işsiz insanlardır. Belə ki, Ermənistanın vəzifəli şəxsləri erməni-repatriantları yerləşdirmək adı altında azərbaycanlıları kütləvi surətdə işdən azad etmişlər [1,v.5].

Diqqəti çəkən məsələlərdən biri də azərbaycanlıların Ermənistandan köçürülməsi üçün nəzərdə tutulmuş carı plana İravan şəhərinin azərbaycanlı sakinləri də salınmışdı. 230 nəfərlik şəhər sakinlərinin Kür-Araz ovalığı ilə heç bir əlaqəsi olmadığını, onların oraya köçürülməsinin yolverilməz olduğunu başa düşən M. Məmmədov, M.C. Bağırovdan xahiş edir ki, bu sakinlərin Bakı şəhərinə yaxın olan Abşeronda yerləşdirilməsinə kömək etsin [1,v.5-6].

Köçürüləcək əhali iqlim şəraiti ilə bağlı narahatlıqlarını gizlətmir, onların əsasən dağlıq və dağətəyi rayonlarda yerləşdirilməsini hökümətdən xahiş edilir-

di. Bununla bağlı M. Məmmədovun məlumatında göstərilirdi ki, köçkünlər Kirovabad (indiki Gəncə) Şamxor (indiki Şəmkir), Tovuz, Ağstafa, Qazax və Kirovabad (indiki Gəncə) ətrafında məskunlaşmaq istəyirlər.[1,v. 20-27]

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində işləyərkən rast gəldiyimiz bir arxiv sənədi tarixi həqiqətlərin üzə çıxarılmasında xüsusən də, türk əhalisinin köçürülmə siyasətinə aydınlıq gətirmək baxımından qiymətli sənədir. Sənəddən məlum olur ki, SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarında nəzərdə tutulduğu kimi köçürülmə hec də xoşluqla olmayıb və məcburi xarakter daşıyıb.

Köçürmə illərində Ermənistan SSR Daxili İşlər Naziri işləmiş X.Qriqoryanın Azərbaycan K (b) P MK-nın birinci katibi M. C. Bağırova ünvanladığı, üzərində "tamamilə məxfidir" qrifli 3 may 1948-ci il tarixli " Ermənistan SSR-in azərbaycanın əhalisi arasında köçürülməyə dair əhval-ruhiyyə haqqında" arayışı diqqəti çəkəndir. X. Qriqoryan arayışda bildirirdi: "Xarakterik haldır ki, gələcək köçürmə ilə bağlı əhaliyə xəbər verilən kimi və bu tədbirin məqsədləri kolxozçuların ümumi yığıncağında açıqlandığı zaman iştirakçılar öz tərəfindən hökümətin bu qərarını yekdilliklə müsbət qarşılasalar da,öz aralarında olan təkbətək söhbətlərində əhalinin çoxu bu tədbirə qarşı öz etirazlarının bildirirlər".[2,v.27]

Köçürmə ərəfəsində Ermənistan xüsusi xidmət orqanları və onların yerlərdəki coxsaylı agentləri vasitəsi ilə azərbaycanın əhalinin köçürmə siyasətinə olan münasibəti öyrənilir və lazimi dövlət instansiyalarına çatdırılırdı. Azərbaycanlı əhalisi arasında aparılan dinləmələr və ictimai rəyin öyrənilməsi zamanı məlum olur ki, əhali tərəfindən köçürülməyə olan münasibət hec də rəsmi orqanların bildirdiyi kimi bir mənalı deyildi. Ermənistan SSR Daxili İşlər Naziri X. Qriqoryan azərbaycanın əhali arasında yaranmış mənfi əhval ruhiyyəni onlar arasında aparılmış zəif izahat işləri ilə bağlasa da, əsl həqiqətdə Azərbaycan türkləri minillər boyu yaşadıqları, onlara məxsus tarixi-etnik torpaqlarının heç də asanlıqla tərk etmək istəmirdilər. Bu faktı təsdiq edən X. Qriqoryan Azərbaycan rəhbərinə ünvanladığı arayışda bildirirdi: " Bizim tərəfimizdən çoxlu faktlar əldə olunmuşdur ki, azərbaycanlılar yaşayış yerlərindən köçmək istəmirlər..."[2,v.20-21]

Köçürməyə qarşı qeyri və yarımleqal formalarda gizli də olsa mənfi münasibət davam edir, demək olar ki, Ermənistanın azərbaycanlılar yaşayan bütün rayonlarını əhatə etmişdir.Köçürməyə qarşı mənfi münasibət Zəngibasar, Amasya, Noyemberyan, Basarkeçər, Sisyan, Vedi, Qarabağlar, Artaşat (Qəmərli), Oktomberyan, Qafan, Meğri və s. başqa rayonun azərbaycanlıları arasında kəskin şəkildə nəzərə çarpırdı.[ 2,v.20]





Amasya rayonunun Çivinli, Basarkeçər rayonunun Şişqaya kəndlərinin böyük bir hissəsi qəti surətdə Azərbaycana köçməkdən imtina etmiş, Artaşat rayonunun Axund Bozavənd, Dargalı kəndlərinin azərbaycanlı əhalisi isə bildirirdilər ki, bizimlə nə edirlər etsinlər, hec bir halda biz buradan köçən deyilik. Qoy bizi elə yerimizdəcə öldürsünlər. Qafan rayonunun Siznak kənd kolxozunun sədri Bəşir Tağıyev isə bütün həmkəndlilərinin köçürməyə olan münasibətini ifadə edərək deyirdi: "Doğma kənddə ölmək, təzə yerə köçməkdən yaxşıdır.[2,v.25]

Zəngibasar rayonunun Zəngilər, Xırda Dəmirçi, Oktomberyan rayonunun Baxçalar kəndlərinin bir qrup sakinləri köçürülmənin səbəbini erməni –repatriantlarının gəlişi ilə əlaqələndirirdilər. Onlar bu qənaətdə idilər ki, onların təsərrüfatlarında erməni-repatriantlar yerləşdiriləcək.[2,v.25]

Amasya rayonunun Çivinli, İbiş, Daşkörpü, Zəngibasar rayonunun Şurakənd, Zəngilər, Kolanlı, Ağahəmzəli, Vedi rayonunun Böyük Vedi, Taytan, Şirazlı kəndlərinin bir qrup sakinləri isə öz evlərini sökür, tikinti materiallarını satır və həyətyanı meyvə ağaclarını kəsib doğrayırdılar ki, onlara qismət olmayan fərdi təsərrüfatlar və tikililər ermənilərə qalmasın. [2, v.25]

Kolxoz təsərrüfatlarında çalışan azərbaycanlı əhali köçürmə siyasətinə etiraz əlaməti olaraq tarlalara çıxmır, vergi ödəməkdən imtina edirdilər. Oktomberyan rayonunun Bağçalar kəndinin kalxozçuları Zəngibasar rayonunun Zəngilər, Kolanlı, Ağahəmzəli, Basarkeçər rayonunun Çaxırlı, Amasya rayonunun Çivinli kəndlərinin kolxozçuları kütləvi sürətdə işə çıxmaqdan imtina edirdi. Onlardan işə çıxmamalarının səbəbini soruşduqda onlar cavab verirdilər ki, bir halda ermənilər bizi Ermənistandan köçürürlər, kim üçün və nə üçün biz işləməliyik. [1,v.20]

Vergi ödəməkdən imtina edən Zəngibasar rayonunun Sarıcalar kəndinin kalxozçuları isə bunu onunla izah edirdilər ki, onsuz da hamımızı köçürüləcəklər. Nahaq yerə bizim kolxozçular vergi ödəyirlər. Göygümbəz kəndinin kolxozçuları isə söhbətdə bildirirdilər ki, nahaq yerə biz kolxozda işləyirik, bizim bütün əməyimiz ermənilərə qalacaq. Ümumiyyətlə ermənilərlə yaşamaq çətindir. Çünki onlar bizi sıxışdırırlar, hətta kolxozlarda belə bizə münasib iş vermirlər.[2,v.21]

Dinləmələrdən aydın olur ki, azərbaycanlı əhalinin əksər hissəsi köçürülmənin əsas səbəbini ermənilərin türklərə qarşı olan tarixi etnik düşmənçiliklərində görürdülər. Bu insanların yaşlı və orta nəsli bu ərazidə ermənilərin onların başına gətirdikləri qanlı faciələrin şahidi idilər. 1905-1907-ci illərin hadisələrini, 1918-1920-ci illərin qaçqınlıq illərini hələ də unuda bilməmişdi.

Ermənistan rəhbərləri Vedi rayonundan türk əhalini köçürmək üçün daha sərt üsuldan istifadə edirdi. Köçürmənin ilk ilində planda nəzərdə tutulduğu kimi Vedi rayonundan 500 adamın köçürülməsi nəzərdə tutulsa da 1948- ci aprelin 28- nə kimi 9. 915 min adamın köçmək üçün ərizəsi alınmışdı. Ermənistan K(b)P



Azərbaycan Milli Kitabxanası

MK-nın xüsusi tapşırığı ilə əlaqədar təşkilatlar kəndlərdən 628 təsərrüfatın köçürülməsi haqqında ərizələri alınmışdı.[2,v.296 ]

Vedi rayonu İcraiyyə Komitəsinin sədri Ə. Məmmədov 1949-cu il noyabr ayının 3-də Çarqoğluyana vurduğu teleqramda rayonun Kölcığ, Mənkük, Armik, Qaraqoyun, Sünbül kəndlərinin əhalisinin evlərini, mal-qaralarını satması və onlar arasında daha çox gündəlik ərzağa, çörək ehtiyatları tükənmiş adamların olduğu barədə xəbərdarlığına baxmayaraq Ermənistan rəhbərləri bu vəziyyətdən faydalanmağa çalışır, zavallı insanların taleyinə qarşı dözümlülük və biganəlik nümayiş etdirir [2,v.297]

Köçürülmə tədbirlərinə qarşı etiraz edən azərbaycanlı əhali köçürülmə ilə bağlı Sovet hökumətinə, Azərbaycan rəhbərliyinə teleqramlar vurur, teleqramlarda onların narazılığı açıq-aşkar ifadə olunurdu. Mərkəzi hökumətə vurulan teleqramlar Ermənistanın poçt idarələrində ciddi nəzarətə götürülür, onun mətni yoxlandıqdan sonra teleqramların vurulmasına icazə verilirdi. Bəzi hallarda isə onlara göndərilmiş cavab teleqramları sahiblərinə bilərəkdən çatdırılmırdı.

Köçürülmə tədbirlərinə qoşulmayan və bütün əhalisi ilə birlikdə bu siyasi tədbirə etiraz edən Noyomberyan rayonunun Ləmbəli kəndinin əhalisi hələ 1948-ci ildə köçürülməsi nəzərdə tutulan kəndlərin siyahısında idi. SSRİ NS-nin 140848 saylı 29 sentyabr 1948-ciil tarixli qərarına əsasən, Ermənistan SSR NS Ləmbəli zeytun sovxozu və qonşu Kərkilə kəndində subtropik sovxoz yaradılması haqqında xüsusi qərar qəbul etmiş və bununla əlaqədar həmin kəndlərin sakinləri sərəncama əsasən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməli, onlara məxsus malikanə və torpaqlar ermənilərə verilməli idi [1, v.152].

Bu barədə, Ləmbəlinin, Aşağı Körpülünün, Zəngibasar rayonunun Hacı Elyas kəndlərinin əhalisinin köçürülməsini sürətləndirilməsi barədə Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini A.Piruzyanın Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyeva 18 oktyabr 1948-ci il tarixli məktubunda ətraflı bəhs olunur. Məktubun mətnindən aydın olur ki, bu kəndlərdə Ermənistan hökuməti subtropik və tərəvəzçilik sovxozu yaratmış və bu kəndlərin köçürülməsi "zərurəti" bildirilirdi [1, v.52 ].

Ləmbəli kəndinin köçürülməsi Ermənistan rəhbərliyi tərəfindən Respublika Kənd Təsərrüfatı Nazirinin müavini A.Qriqoryana tapşırılsa da, onlar Azərbaycanın Salyan rayonuna köçməkdən qəti imtina edir və açıqdan-açığa hökumətin qərarına itaətsizlik nümayiş etdirirdilər. Azərbaycan SSR Köçürmə idarəsinin rəisi A.Gözəlovun, Azərbaycan SSR NS-nin sədri Teymur Quliyevin adına göndərilmiş 26 oktyabr 1948-ci il tarixli məktubunda ona məlumat verərək bildirirdi ki, 245 təsərrüfatdan (1192 nəfər) ibarət olan Ləmbəli kəndinin əhalisi Azərbaycanın Salyan ərazisinə köçmək istəmirlər [1, v.148].





Ləmbəli kənd sakini Seyidov Əlinin Gürcüstanın Sadaxlı stansiyasından Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun ünvanına göndərdiyi məktub təkcə Ləmbəlidə deyil, bütün Ermənistanda Azərbaycan türklərinin necə və hansı şəraitdə köçürülməsinə aydınlıq gətirir. Məktubun mətnindən aydın olur ki, azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi könüllülük prinsipinə əsaslandığına baxmayaraq, respublikada köçürülmə zorakı yolla aparılır və həmin metod eynilə Ləmbəli kəndində də tətbiq edilir [1, v.151].

Ləmbəli əhalisini köçürməyə razı sala bilməyən rayon rəhbərləri kolxozun ümumi yığıncağında saxta protokol tərtib etmiş, təzyiq altında kolxozçuların 25%-nin razılığını almışlar. Yığıncaqda 150 adam iştirak etdiyi halda protokolda 450 nəfərin iştirakı qeyd olunmuşdur [1, v.151]. Əhalini köçürməyə məcbur etmək məqsədilə Ləmbəli kolxozunun sədri B.İnsanov rayon partiya komitəsinə çağrılaraq ona təzyiqlər göstərilmişdir. Lakin buna baxmayaraq kənd camaatına arxalanan B.İnsanov onların təklifini rədd etmişdi [5, s.178].

Köçürülmənin qəti olduğunu başa düşən B.İnsanov ehtiyatı əldən buraxmır, azərbaycan ziyalılarından bu işə kömək göstərmələrini xahiş edirdi. O, Ləmbəlilərin köçmək istəmədiklərini və köçərlərsə onlar üşün iqlim şəraitinin uyğun olduğu Qazax, Akstafa, Tovuz rayonlarında məskunlaşdırılması məsələsinin yuxarı təşkilatlarda qaldırılmasına köməklik göstərilməsi barədə Səməd Vurğuna müraciət etmişdi. (Bu müraciət AMEA- nın Əlyazmalar İnstitutunun arxivində indiyədək qorunub saxlanılmaqdadır).

S.Karapetyanın göstərişi və milis dəstələrinin köməyi ilə Ləmbəlilər maşınlara dolduralaraq Gürcüstanın azərbaycanlılar yaşayan kəndlərinə köçürülür. Gürcüstan hakimiyyət orqanları isə öz növbəsində əhalini vaqonlara doldurub onları İrəvana göndərir. [5, s.178]. C.Vəlibəyov və B.İnsanov Ləmbəlilərin bu vəziyyəti ilə bağlı Ermənistan K(b)P MK-da olmuş, bundan sonra hökumət Ləmbəlilərin Basarkeçərin Zod, Ağkilsə kəndlərində yerləşdirilməsinə icazə vermişdi [5, s.178].

Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirinin müavini M.Poladovun Ermənistanda olarkən hazırladığı arayışda göstərirdi ki, Ləmbəli əhalisinin evləri bura köçürülən erməni ailələri arasında paylanmış, azərbaycanlıların qəbiristanlığı dağıdılaraq məzar daşlarından yeni binaların tikintisində istifadə olunmuşdur [6,s.34].

Azərbaycan rəhbərliyindən kömək görməyən Ləmbəlilər öz vətənlərinə qayıtmaq üçün əsl mərdlik nümunəsi göstərir, ləmbəliyə qayıdaraq özlərinə yeraltı dəyələr tikərək orada yaşayırlar.Yalnız İ.V.Stalinin ölümündən sonra Ləmbəlilərin G.M.Malenkova ərizə və teleqramlarda zorla əllərindən alınmış evlərinin geri

qaytarılmasını tələb edirlər [6, s.35]. SSRİ Nazirlər Sovetinin göstərişi ilə Baş Köçürmə İdarəsinin xüsusi komissiyası Ləmbəlidə olur və onların qaldırdıqları məsələlər faktlarla təsdiqlənir.Aparılan yoxlamalar və aşkar olunmuş faktlar barədə Ermənistan K(b)P MK-nın yeni təyin edilmiş birinci katibi S.Tovmasyana məlumat verilir [6, s.35].

1950-ci illərin ortalarında Ermənistan K(b)P MK "Ləmbəlidə evlərin keçmiş sahiblərinə qaytarılması və onların sovxozda işə qəbul edilməsi barədə" qərar qəbul edir [6,s.35].Beləliklə, Ləmbəlilərin dörd illik qəhrəmanlıq "epopeyası" onların haqlı tələblərinin yerinə yetirilməsi ilə nəticələnir. Sakinlər kəndlərinə qayıdarkən, onların evlərinə sahib çıxmış ermənilərlə münaqişə baş vermiş, iki azərbaycanlı qadın ermənilər tərəfindən öldürülmüşdü [5, s.183].

Ermənistanın kommunist rəhbərləri və hüquq mühafizə orqanları köçürülməni sürətləndirmək məqsədilə yerli azərbaycanlı partiya- sovet, təsərrüfat rəhbərlərinə təzyiq edir,onları əhali ilə birlikdə köçməyə məcbur edirdilər.Köçkün əhali kütləvi surətdə Kür-Araz ovalığındakı Ucar, Zərdab, ƏliBayramlı, Saatlı, Sabirabad, Kürdəmir,Tərtər və b.rayonlara köçürülürdü.

Köçürülməyə 197 kənd, 100-ü tamamilə, 97-si isə qismən deportasiyaya məruz qaldı.Göründüyü kimi, köçürülmə könüllü deyil, məcburi qaydada həyata keçirilmiş, azərbaycanlı əhalinin açıq müqaviməti ilə nəticələnmiş, Ermənistan SSR-nin azərbaycanlılar yaşayan 22 rayonunu əhatə etmişdi.

Bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, o dövrdə totalitar sistemdə, sərt repressiv şəraitdə azərbaycanlı əhalinin deportasiyaya müqaviməti böyük bir hadisə idi. Buna baxmayaraq 100 mindən çox soydaşımız tarixi torpaqlarından deportasiya edildi. On minlərlə azərbaycanlının köçürmə qanunları ilə deyil, kütləvi köçməsilə müşaiyyət olunmuşdur. Bu baxımdan azərbaycanlıların deportasiyaya qarşı müqavimətini aşağıdakı kimi qruplaşdırmaq mümkündür. 1) Köçürülmənin könüllü olduğuna isnad edilməklə ,öz tarixi torpaqlarını tərk etməkdən boyun qaşırılması; 2) İctimai təsərrüfatlarda çalışmaqdan imtina edilməsi; 3)Şəxsi əmlakın dağıdılması və məhv edilməsi; 4) Köçürməyə qarşı açıq müqavimət göstərilməsi (Ləmbəlilərin timsalında); 5) Köçkünlərin Kür-Araz ovalığında deyil, dağətəyi rayonlarda məskunlaşmaq cəhdləri.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. ARPİİSSA f.1,siy. 222,iş 48
2. ARPİİSSA f.1,siy. 221,iş 5
3. ARDA f.411, siy. 9,iş 734
4. ARPİİSSA f.1,siy.206,iş.29







5. MusayevT.XX əsrdə xalqımızın başına gətirilmiş müsibətlər. Bakı: 1999,319 s.
6. Paşayev A.Köçürülmə.B.,1995, s.40


## ВОПРОСЫ ДЕПОРТАЦИИ АЗЕРБАЙДЖАНЦЕВ ИЗ СВОИХ ИСТОРИЧЕСКИХ ЗЕМЕЛЬ-ТЕРРИТОРИИ АРМЯНСКОЙ ССР И СОПРОТИВЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОГО НАСЕЛЕНИЯ ЭТОЙ ПОЛИТИКЕ (на основе архивных материалов.1947-1953 гг.)

**РЕЗЮМЕ**


Статья посвящена проблеме депортации азербайджанских тюрок в 1947-1953 гг. из своих родных земель, ныне входящих в состав Республики Армения. Автор статьи на основе архивных материалов представил глубокий анализ переселения азербайджанского населения на Куро-Араксинскую низменность. В статье нашли также отражение формы недовольства депортированного населения мероприятиями, реализуемыми советскими органами власти.


## THE ISSUES ON DEPORTATION OF AZERBAIJANIS FROM THEIR HISTORICAL LANDS-ARMENIA SSR AND THE PROTEST OF AZERBAIJANI POPULATION AGAINST THIS POLICY (based on archival materials.1947-1953)

**SUMMARY**


The article deals with deportation of Azerbaijani Turks from historical-ethnic lands – being part of the Armenian SSR in the years 1947-1953. Based on archival material was given detailed analyses of Azerbaijani population's relocation to Kura-Araxes lowland from the of Armenian SSR. Also the forms of dissatisfaction of the deported population for the implemented measures by the Soviet governmental bodies have been reflected in the article.